

# TEATR VƏ REFORMA

***İFTİXAR***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***Əməkdar mədəniyyət işçisi,***

**(əvvəli ötən sayımızda)**

**Bu gün gözlərimiz önündə respublikamızda bütün qurumlarda, o cümlədən mədəniyyət nazirliyi sistemində güclü kadr islahatları aparılır və xüsusən gənclərə daha çox etimad göstərilir. Bunun təqdirəlayiq və səmərəli olduğunu xüsusi vurğulamaq istəyirəm. Çünki, bu danılmaz həqiqətdir ki, gənclik təpədən dınağa qədər yeniliyin nişanəsidir. Gənclik öz praqmatik düşüncələrinə görə bizdən hər zaman bir addım irəlidədir. Biz "bugün", gənclik isə "sabah"dır. Bugünü çürüyən sabahın taleyi də şübhə altındadır. Güman edirəm ki, gənclərimiz xüsusi qayğılarla qorunmalı, formalaşdırılmalı, yetişdirilməli onlardan səmərəli istifadə olunmalıdır. Bu mənada biz də uzun illərdən bəri topladığımız təcrübələrlə gəncliyin qanadlanması üçün əlimizdən gələni əsirgəməməliyik. Hesab edirəm ki, bizlərin təcrübəsi bu işdə böyük səmərə verə bilər. Odur ki, bütün sənətşünas dostları teatr sahəsində reforma aparılması üçün diqqətə cəlb edilən bu xeyirxah çağırışa səs verməyə, bu prosesə qoşulmağa, polemikalar, debatlar aparmağa, ümumən teatr sahəsi də daxil olmaqla, mədəniyyət sistemimizin öz iqtisadi bazasının yaradılması, gücləndirilməsi üçün bilik və bacarıqlarını əsirgəməməyə çağırıram.**

## *Bu çağırışı o fikrə arxalanaraq*

əminliklə bildirmək istəyirəm ki, başqa məhsul verən müəssisələrdən ən rentabellisi məhz incəsənət sahəsidir. Çünki bu sahə bir başa, mənəvi zənginləşməni təmin edən sahədir. Bütün dövrlərdə incəsənətin dəyəri ən ali əyyarlarla qiymətləndirilmişdir. Bu sənətin bütün növləri tarixin səhifələrində ən dəyərli yerləri tutur. Kino sənəti sahəsi də məhz bu baxımdan önəmli yerdə bərqərardır. Və nəzrə alsaq ki, dünyada öz rentabelliliyi ilə rekord qıran kino industriyası teatr sənətinin doğmaca ailə üzvüdür, o zaman heç bir şübhə qalmır ki, iqtisadi potensialın artması kontekstində kino sənəti sahəsi kimi ətrafa meydan oxuya biləcək bir sahə varsa, o da teatr sənəti sahəsidir. Bir də onu nəzərə almaq gərəkdir ki, canlı, ecazkar, füsünkar, sirli-sehirli və gözəl qadın qədər cazibədar olan səhnənin sehirli tilsimi tamaşaçını ildırım eşqi ilə özünə bağlamaq və dərhal ovsunlamaq qüdrətinə malikdir. Və onu da unutmamaqda fayda var ki, bu sahəyə çəkilən əziyyət, xərc və zaman, kino sahəsinə çəkilən xərcdən və israf edilən zamandan yüz dəfələrcə azdır. Yetər ki, teatr sənətinin rentabelli olması üçün gərək olan mexanizmin qurulmasını biz teatr xadimləri birgə olaraq düşünüb ərsəyə gətirək!

***Hazırda az qala 21-ci əsrin birinci yarısının ortalarını haqladığımız bir zamanda hələ də teatr sənətinin tez-tez təngnəfəs olduğunu, yaşamaq üçün mücadilə apardığını görməkdə və ya görərərk gözardına vurmaqda suçlu olan bizlər zorla nəfəs alan teatr sənətinə yalnız əyləndirmə və düşündürmə sahəsi kimi baxmağın yanlış olduğunu həyəcnla müzakirə müstəvisinə gətirməyə sanki zorlanırıq. Bununla da bu sənətin ictimai-siyasi, elmi-fəlsəfi mahiyyəti ilə yanaşı yer ala bilən iqtisadi anlamını kiçildirik.***

Halbuki, cəmiyyətdən hər zaman yüksəkdə dayanan səhnənin və onun yaradıcılarının qeyri-adi fərqliliyini, cəmiyyətin formalaşması istiqamətində mühüm mövqeyə malik olan teatr sənətinin böyük bir silahlı ordunun görə bilməyəcəyi gücə malik olduğunu dəyərləndirməklə bu sənət növünün nə qədər qiymətli olduğunu əyani şəkildə öz yerinə yüksəltmiş ola biləcəyimizi dərk etməyin çoxdan zamanının yetişdiyini bilməli və bunu ətrafa sübut etməliyik. Bu danılmaz bir həqiqətdir ki, hər bir insanın içində sənət xadimlərinə intəhasız həsəd yaşayır. Teatr sənətinin də gücü məhz belə meyyarlardadır. Belə meyyarlardan yararlanmamaq fəhmsizlikdir.

Çağdaş dövr teatr sənətinin yeni mərhələyə qədəm qoyması, tam başqa qiyafədə, başqa donda, başqa cilddə, başqa maskada yaradıcılıq yoluna daxil olması, tam fərqli mexanizmlə çalışması üçün vacib olan islahatların aparılmasına ciddi ehtiyac duyulduğu kimi, bu islahatların mənfəəti barədə çox geniş, ətraflı və dinamik təbliğat işlərinə də start verməyin zamanının yetişdiyini dəyərləndirməliyik. Yeni mexanizmlə çalışacaq olan teatr sənətinin nəzərdə tutulan mexanizminin mahiyyət və səmərəsinin elmi və praktiki reallığı barədə cəmiyyəti inandıra bilmək üçün sənətşünaslarımızın, xüsusən də teatrşünaslarımızın iştirakı ilə geniş maarifləndirmə işlərinin aparılmasına da böyük ehtiyacın olduğunu görməli və bu istiqamətdə ətraflı və gərgin iş aparmağın vacibliyini önə çəkməliyik. Bu fikirlərə söyləyərkən, 1998-2000-ci illərdə Tiflis Azərbaycan Teatrının bərpa rəhbərliyinə başladığımız günlərdə, başlanğıcda görülən işlərin verduyi səmərəni yada salmaq istəyirəm. İlk olaraq fəaliyyətimizə, Mədəniyyət Nazirliyinin böyük dəstəyi ilə Akademik Milli Dram Teatrının müqtədir sənətkarlarının Gürcüstanda, soydaşlarımızın sıx yaşadıqları bölgələrdə kənd-kənd, rayon-rayon gəzərək, təmənnasız tamaşalar göstərərək təbliğat işləri aparmaqla başladıq. Orada uzun illər unutdurulmağa çalışılmış teatr sənətinə olan marağı yenidən oyatmağa başladıq. Teatr mühitinin canlanmasına xidmət edən bu addım öz səmərəsini verdi. Biz 1991-ci ildə təssis etdiyimiz Azərbaycan Milli Dastan Teatrının fəaliyyət prinsiplərini müəyyənləşdirərkən, teatrın çətinliklərə məruz qalmaması üçün, ilk növbədə onun özünümaliyələşdirmə prinsipi ilə çalışmağına üstünlük verdik. Teatrın iqtisadi bazasını yaradaraq, səmərəli nəticə əldə etdik. Zamanında cəmiyyətin qəbul etmədiyi bəzi üsullardan istifadə etdik. Həmin üsullardan sonralar başqa sahələrdə də istifadə olunduğunun şahidinə çevrildik. Qəbul olunmuş bir həqiqət var ki, hər bir fövqəlyenilik, novatorluq, gözqamaşdırıcı təsiri bağışlayan qeyri-adilik ilk baxışdan cəmiyyət tərəfindən qəbulolunmazlıq damğası ilə yarğılanır. Buna bir çox misallar gətirmək olar, lakin bir tək, yer kürəsinin öz oxu ətrafında fırlandığını bəyan edən və bütün cəmiyyət tərəfindən lənətlənən, lakin ən sonda onun qələbəsi ilə nəticələnən Q.Qalileyin timsalında deyilən fikir öz təsdiqini tam şəkildə tapır. Ümumiyyətlə yeniliyi doğan beyinlər cəmiyyətin onları anlaya biləcəyi ana qədər özlərinəməxsus kolydeskoplarında gözləmə mövqeyi tutmaq məcburiyyətində qalırlar. Onlara inanmayanları isə düşündürmək məcburiyyətində yaşadırlar. Nəhayət dərk olunduqları zamanda, cəmiyyətin həmin üzvləri özlərini həmən koleydeskopun divarları arasında mat qalmış şəkildə görürlər. Əslində artıq köhnələn, lakin öz zamanında qəbul olunmayan, cəmiyyət üçün hələ indi-indi anlaşılan həmin novatorluğa heyran qalırlar, novatorlara həsəd aparırlar. Zamanı keçmiş həmin yenilik isə artıq dövrün yeni koleydeskopunda çırpınan daha yeni kəşflərin anlaşılmadığına təəssüflə boylanır.

**Belə amilləri nəzərə alaraq anlamalıyıq ki, haqqında söz açdığımız 1991-ci ildə yararlandığımız, hazırda bizə görə köhnəlmiş, lakin teatr camiəsi üçün çox yeni görünəcək olan, hətta bəlkə də ilk zamanlar çətinliklə qəbul olunacaq həmən üsullardan bu gün istifadə etməyin tam zamanıdır.**

## *Yeni teatr,*

həm yeni şərtlərə uymalı, həm də öz ecazkar təsir qüvvəsi ilə cəmiyyəti ram edənə, sənətin ali missiyası barədə elmi-nəzəri fikirlərə inandırmaq üçün təfəkkürlərdə özünə yer tutana qədər, cəmiyyətin tələblərinə cavab verməli və tədricən psixoloji faktora sirayət etməklə, öz sehrinə salaraq, tamaşaçının düşüncə və dərk etmə bazasına daxil olmalıdır.

***Bununla da, sənətin ecazkar cazibə qüvvəsi ilə bütövlükdə insan təfəkkürünü həm reformanın şərtləri ilə, həm də bu şərtlərin həqiqətini tam aydınladana qədər geniş təbliğat və maarifləndirmə yolu ilə fəth etməlidir. Dediyimiz kimi, istənilənə nail olmaq üçün tamaşaçı tələbinin kompanentlərinə üstünlük vermək mütləqdir. Nədir bu kompanentlər? Əlbəttə ki, tamaşaçının üstünlük verdiyi bütün amillər. Tamaşaçı bu gün nəyə üstünlük verir? Heç şübhəsiz ki, öz iqtisadi vəziyyətinin yaxşılaşmasına, eyni zamanda mənəvi zənginliyə. Bu yolda tamaşaçı hər bir tələbə uyğunlaşmağa hazırdır. Bu amili nəzərə alaraq, biz, bu istiqamətdə həm tamaşaçıya yardım etməli, həm də öz maraqlarımıza çatmaq üçün illyuziyalar yaratmalıyıq.***

Demək ki, tamaşaçının maraq dairəsində olan amillərlə onu sehirləmək daha asan və rahatdır. Yəni tamaşaçının tamaşanı görəcək anına qədər onunla əyləncə qurmaq və həmin əyləncə vasitəsi ilə onu salona çəkib gətirmək lazımdır. Əgər biz tamaşaçıya sürprizlərlə dolu olan, içərisində pul və ya qiymətli əşyalarla zəngin olan "sandıqca"lar, yuxarıda qeyd etdiyimiz biletlər, təqvimlər, bukletlər və sair təklif ediriksə, tamaşaçı həmin "sandıqca"ların içindəki sürprizlərə sahib olmaq üçün mütləq reaksiya verəcəkdir. Bu reaksiya ikitərəfli maraqların vəhdətinə çevriləcəkdir. Bunlara nail olmaq üçün bizim ilk işimiz reformanın layihəsini peşəkarcasına işləyib hazırlamaq, daha sonra isə həm teatr sənətkarlarını, həm də cəmiyyəti bu struktura adaptasiya etmək üçün durmadan izahatlar verməkdən ibarətdir.

**Bu günkü reformanın qəbul olunması üçün əsas mahiyət psixoloji faktora hansı güc və təsir qüvvəsi ilə sirayət etməkdən keçir. Öncəliklə və mütləq öncəliklə biz yola psixoloji amildən varid olmalı, cəmiyyətin psixoloji arealına çox üzvi və harmonik şəkildə daxil olmağı bacarmalıyıq.**

## *Bütün fokusların sehrləri*

sadədir, ancaq anlaşılmaz və aludəedicidir. Biz bu üsula xüsusi diqqət yetirməliyik. Sadə və sirli üsul hər zaman ətrafı özünə qabarıqcasına cəlb edir. İnsan düşüncəsində formalaşan psixoloji vəziyyət onu necə idarə etməkdən və ya onun insanı necə idarə etməyindən asılı olduğu kimi, ona təsir etmək imkanı da, ona necə yanaşmaqdan və özünə necə inandıra bilməkdən asılıdır. İnsanın psixoloji hazırlığında müsbət şaşqınlıq yaratmaq üçün, onun tələblərinin istəyi istiqamətində ona xidmət etməklə, onu öz təsirin altına almağa nail ola bilərsən. Bütün tamaşaçıların maraq dairəsində ilk amil iqtisadi maraqdır. Bunu fokşçular yaxşı dərk etdiklərinə görə, onlar insanlardan istədiyini almaq üçün onun istəyinə xidmətlə işə başlayır, yəni iqtisadi tərəfdən onun tələblərinə xidmət etdiyini göstərir və illiyuziyon priyomlarla onu sehirləyir, nəticədə illiyuzionistlər tərəfindən həm tamaşaçı üçün maraqlı vəziyyətlər yaranır, həm də oyunçu öz istəyinə nail olur.

**Sonrakı mərhələdə isə, fokşçular o qədər aludə və heyranedici sehrli fokslarla insanın psixologiyasına təsir edir ki, insan maddi marağını mənəvi rahatlığına qurban verməyi üstün tutur. Belə ki, müasir tamaşaçını iqtisadi maraqla həvəsləndirmək, salona daxil olduqdan sonra isə onu sənətin cazibəsi ilə ovsunlamaq üsulu yeganə doğru yoldur. Bunun üçün çeşidli layihələr hazırlamaq və respublika miqyaslı geniş teatr təbliğatına başlamaq əsas şərtdir. Bu təbliğatın səmərəli olması üçün ilk növbədə "Teatr" adlı televiziya kanalının yaranması labüddür.**

Həmin kanal vasitəsi ilə bütün teatrların hazırladıqları layihələr geniş təbliğ olunmalı, oynayacaqları tamaşalara cəlb olunacaq tamaşaçı kütləsinin psixoloji qohumuna çevrilmək üçün yararlanılmalıdır. Bu yolla, möcüzə axtaran insanları onların istəkləri ilə sehirləmək, səhnədə hansı hadisələrin baş verəcəyindən asılı olmayaraq, xüsusitəsiredici təbliğatın gücü ilə tamaşaçını öz arxanca aparmağa çalışmaq lazımdır. Bu zaman tamaşaçı həm öz iqtisadi marağına görə, həm də mənəvi zənginliyinə qovuşmaq üçün teatrların qapılarını çalmağa tələsəcək, tamaşanı seyr etdikcə onun iqtisadi marağını mənəvi zənginlik üstələyəcək və tamaşaçı teatr sənətinin yararlı cəhətlərini dərk etdikcə bu yolun daimi yolçusuna çevriləcəkdir.

Nəzərdə tutulan reformanı uğurla həyata keçirə bilsək, respublikamızda daha çox teatrlar yaranacaqdır. Hətta mərkəzi bələdiyyələr də teatr sənətinin üstün cəhətlərini nəzərə alaraq əhaliyə təmənnasız mədəni xidmət göstərmək məqsədi ilə öz bələdiyyə teatrlarını yaradacaqdır.

Əminliklə bildirmək istəyirəm ki, çağdaş teatr sisteminin yenilənməsini təmin edə biləcək bu reforma öz səmərəsini verəcək, dünyəvi miqyas ala biləc bir yenilik kimi Azərbaycan modeli olaraq ilk və nümunəvi bir örnəyə çevriləcəkdir.

## *Çağdaş teatr sisteminin yenilənməsi*

barədə örnək deyərkən, düşüncəmizdən keçir ki, iqtisadi dirçəliş və mütləq şəffaflıq, sağlam yaradıcı mühitin yaradılması, dinamik fəaliyyət, yüksək səviyyəli sənət nümunələrinin ərsəyə gətirilməsi, əməkdaşların maaddi rifahının yaxşılaşdırılması, tamaşaçı kütləsinin teatr salonlarına axınının təmin olunması, xarici ölkələrdə və daxili məkanda Azərbaycan teatr sənətinə marağın artması, peşəkar sənətkarların yetişdirilməsi və ümumən yeni teatr atmosferinin geniş miqyas alması üçün Mədəniyyət Nazirliyinin nəzdində, İncəsənət Şöbəsinin kurasiyasında yeni idarəçilik sistemi, "Teatrların baş idarəsi"(ad şərtidir) təsis edilməlidir. "Teatrların baş idarəsi" qurumuna Baş prodüsser rəhbərlik edir. Baş prodüsser vəzifəsinə təyinatı Mədəniyyət Naziri verir.

**Bütün teatr qurumları bir başa "Teatrların baş idarəsi"nin qurumuna daxil edilir. "Teatrların baş idarəsi"ndə şəhər, bölgə, qaçqın və məcburi köçkün teatrlarının hər birinə nəzarət üçün mütəxəssis ştatları ayrılır. Bütün teatrların mühasibatlıq işləri "Teatrların baş idarəsi"nin mühasibatlığı tərəfindən aparılır. "Teatrların baş idarəsi"nin repertuar, quruluş sahəsi, marketinq və kommersiya qurumları sahələri üzrə nəzarət üçün mütəxəssis ştatları ayrılır. "Teatrların baş idarəsi"nə tabe olan teatr qurumlarında aşağıdakı qaydada idarəetmə strukturu qurulur.**

Teatrlardan direktor, direktor müavinləri, baş inzibatçı və inzibatçı vəzifələri, baş mühasib də daxil olmaqla, mühasiblıq üzrə bütün vəzifələr, baş rejissor, baş rəsam, rejissor ştatları ləğv edilir. Teatra prodüsser rəhbərlik edir. Prodüsser vəzifəsinə təyinatı Baş prodüsser verir.

## *Teatrların maaşları*

"Teatrların baş idarəsi"nin mühasibatlığı tərəfindən bir başa əməkdaşların maaş kartlarına köçürülür. Teatrlara əməkdaşların işə qəbulu, prodüsserin yazılı rəyi ilə "Teatrların baş idarəsi" tərəfindən onlayn şəkildə təsdiq olunduqdan sorna, əmək portalında qeydiyyata alınmaqla, üç aylıq sınaq müddətinə və ya bir il müddətinə müqavilə və ya kontrakt vasitəsi ilə həyata keçirilir. Üç aylıq sınaq və ya bir il müddətində özünü doğrultmayan əməkdaşlarla bağlanmış müqavilə və kontraktlar birtərəfli qaydada ləğv olunur. Aktyorların müqavilə və kontraktları tamaşalardakı məşğulluğuna əsasən uzadılır və ya birtərəfli qaydada ləğv olunur. Teatrlarda yaradılan Marketinq bölməsi teatrların reklam və kommersiya işlərini icra edir. Biletlərin yayımı mərkəzi kassalar vasitəsi ilə həyata keçirlir. Repertuar planı teatrların yaradıcılıq siyasətinin müəyyən etdiyi tələblərlə qurulur, prodüsserin təklifinə əsasən "Teatrların baş idarəsi"nin təsdiqi ilə qəbul olunur. Repertuarda nəzərdə tutulan əsərlər əvvəlcədən "Teatrların baş idarəsi" ilə razılaşdırılmaqla rüblük və ya illik təsdiq oluna bilər. Növbədənkənar hazırlancaq əsərlər prodüsserin yazılı müraciəti və Baş prodüsserin təsdiqi ilə repertuara daxil olunur.

**Prodüsserlərin həyata keçirmək istədikləri layihələr və digər bütün işlər üçün bağlanılması nəzərdə tutulan müqavilə və kontraktlar prodüsserlərin vizası olduqdan sonra, onlayn xidmət üsulu ilə Baş prodüsser tərfindən imzalanır. Asan imza sistemi aktiv vüsət alır.**

Tamaşaların texniki hazırlığına teatrların quruluş hissəsi üzrə mütəxəssislər rəhbərlik edir. Vəsaitlər nəzərdə tutulmuş smetaya əsasən, aidiyyatı istiqamət üzrə, "Teatrların baş idarəsi" tərəfindən bir başa əşyaların alındığı satış nöqtələrinə köçürmə yolu ilə həyata keçirilir. Biletlərdən əldə olunan gəlirlər hər bir teatrın adına olan kodlarla şifrələnməklə, "Teatrların baş idarəsi"nin mühasibatlığına aid bank hesabına mədaxil olunur. Bilet satışından əldə olunan gəlirlərdən aktyor normalarının göstəricisinə uyğun olaraq, maaşlara əlavələr verilir. Tamaşaların hazırlanması, teatrların prodüsserlərinin yazılı təklifinə uyğun olaraq, Baş prodüsserin bağladığı kontrakta əsasən yaradılan qrupla həyata keçirilir. Gələcəkdə tədricən aktyor ştatları ləğv olunur, hər tamaşaya uyğun olaraq, kontraktla aktyorlar işə cəlb olunurlar. Hər bir tamaşa üçün "Teatrların baş idarəsi" tərəfindən gəlir normaları tətbiq edilir. Hazırlanan tamaşalar "Teatrların baş idarəsi"nin müəyyən etdiyi maliyə normasını yerinə yetirdikdən sonra, həmin tamaşaya tamaşaçı marağından asılı olaraq, prodüsserlərin yazılı rəyi vasitəsi ilə və "Teatrların baş idarəsi"nin təsdiqi ilə repertuarda saxlanıla və çıxarıla bilır.

Hər bir prodüsser öz rəhbərlik etdiyi teatrın marketinq və kommersiya sisteninin zənginləşdirilməsinə, tamaşaların rentabelli olmasına bir başa cavabdehdirlər. Xərcini ödəməyən tamaşalara xərclənən vəsait, növbəti ilk tamaşanın təyin olunmuş normasından əlavə qazancı hesabına çıxarılmasa, həmin xərclər hissə-hissə prodüsserlərin maaşından tutulur. Maaşlar Azərbaycan Respublikasının maliyyə-bölgü sisteminə uyğun olaraq Mədəniyyət nazirliyinin təsdiq etdiyi "Teatrların baş idarəsi"nin ştat cədvəlinə görə müəyyən edilir. Maaşlara əlavələr əməkdaşların kateqoriyalarına uyğun olaraq, normaya əsasən müəyyənləşir, "Teatrların baş idarəsi"nin təsdiqi ilə verilir.

Teatrlar tamaşaçıları həvəsləndirmək məqsədi ilə mükafatlarla təmin olunmuş uduşlu biletlərin, teatrda çalışan aktyorların və teatrla əməkdaşlıq edən sənət xadimlərinin (rejissor, rəssam, bəstəkar, xoreoqraf, baletmestr, drijor və sair) uduşlu portret foto-şəkillərinin, buklet və təqvimlərinin, kitad və jurnalların satışını təşkil edir.

Yaradıcı əməkdaşların hər birinə aid satışa buraxılan əşyalara görə həmin satışdan gələn gəlr hesabına həmin əməkdaşlara qonararlar verilir. Teatrların kommersiya gəlirləri hesabına teatrlarda çalışan sənətkarlarla bərabər digər sahələrdə çalışan əməkdaşlara da "Teatrların baş idarəsi" tərəfindən əvvəlcədən təsdiq olunmuş normaya əsasən əlavələr verilir.

"Teatrların baş idarəsi" "Teatr" televiziya kanalını yaradır. Həmin kanal vasitəsi ilə, hər bir teatra ayrılmış vaxtda, həmin teatrın tamaşası göstərilir, həmin teatrın reklam və təbliğat işləri aparılır. "Səhnə və salon" adlı və bu kimi həvəsləndirici və teatra tamaşaçı cəlb edə bilən layihələr həyata keçirilir.

"Teatrların baş idarəsi" "Qızıl maska" mükafatını təsis etdir. Həvəsləndirmək məqsədi ilə həmin mükafat sənət adamları ilə yanaşı, xüsusi aktivlik göstərən teatr tamaşaçılarına da verilir.

"Teatrların baş idarəsi" qanunla qadağan olunmayan bütün işləri həyata keçirə bilir.

**Əziz teatr xadimləri və teatrsevərlər, Sizi, pondemiya dövrünün sona yetəcəyi zamandan sonra, Azərbaycan teatr sənətinin yeni mərhələyə qədəm qoymasına böyük ehtiyacın olduğunu dəyərləndirməyə və bu istiqamətdə bilik və bacarıqlarınızı əsirgəməməyə, başlanacaq olan yeni dövrün yeni islahatları ilə sənətimizin inkişafı naminə əlinizdən gələni əsirgəməməyə çağırıram. Hər birinizi təklif etdiyim reforma ətrafında düşünməyə, bu xüsusda polemikaya qoşulmağa və təkliflərinizlə öz töhfənizi verməyə səsləyirəm.**

**Hörmətlərimlə!**

Ədalət.- 2020.- 2 iyun. S. 4.